AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

# Ailə kəndli təsərrüfatlarının və torpaq mülkiyyətçilərinin aylıq MƏCBURİ DÖVLƏT SOSİAL SIĞORTA HAQQININ HESABLANMASI VƏ ÖDƏNİLMƏSİ

BAKI – 2026

- Məcburi dövlət sosial sığorta məqsədləri üçün uçotda olmadığınız halda, ilk növbədə qeydiyyatda olduğunuz ərazinin vergi orqanının vergi ödəyicilərinə xidmət mərkəzlərinə **("KOB evləri"nə və ya "ASAN Xidmət" mərkəzinə) "Fiziki şəxsin uçotu haqqında ərizə" ilə müraciət edərək Vergi Ödəyicisinin Eyniləşdirmə Nömrəsini (VÖEN) almalısınız.**

## Ərizə ilə vergi orqanına nə vaxt müraciət edilməlidir?

- Ailə kəndli təsərrüfatları* müvafiq ərazi üzrə bələdiyyə orqanında uçota alınması barədə vəsiqə aldıqdan sonra - bir ay müddətində;
- Mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən şəxslər torpağa mülkiyyət hüququnu təsdiq edən sənədi aldıqdan sonra - bir ay müddətində.

### Uçota alınmaq üçün təqdim edilən ərizəyə

- şəxsiyyəti təsdiq edən sənədin surəti;
- torpaq mülkiyyətçilərinə münasibətdə torpağa mülkiyyət hüququnu təsdiq edən sənədin (aktın, şəhadətnamənin, qeydiyyat vəsiqəsinin) və "Torpaq sahəsinin planı və ölçüsü"nün surəti;
- ailə kəndli təsərrüfatının başçısına münasibətdə bələdiyyə orqanlarında təsərrüfatın uçota götürülməsi barədə onun başçısına və ailə üzvlərinə verilən vəsiqənin surəti əlavə edilməlidir.

* **Ailə kəndli təsərrüfatı** - ailə üzvlərinin və onlarla birgə fəaliyyət göstərən şəxslərin fərdi əməyi və mülkiyyətində və ya icarəsində olan əmlak əsasında hüquqi şəxs yaratmadan kənd yerlərində istehsal və digər təsərrüfat fəaliyyətinin (məhsulların istehsalı, emalı, saxlanması, daşınması və satılması) birgə həyata keçirilməsidir. Ailə kəndli təsərrüfatı onun üzvlərinin seçdiyi təsərrüfat başçısı tərəfindən idarə edilir.

## Məcburi dövlət sosial sığorta haqqı nəyə əsasən hesablanır?

- Mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslərin və ailə kəndli təsərrüfatlarının əmək qabiliyyətli ailə üzvlərinin hər biri üçün
  - torpaq sahəsi **5 hektaradək** olduqda – minimum aylıq əməkhaqqının **5 faiz** miqdarında;
  - torpaq sahəsi 5 hektardan **10 hektaradək** olduqda – minimum aylıq əməkhaqqının **7,5 faiz** miqdarında;
  - torpaq sahəsi **10 hektardan yuxarı** olduqda – minimum aylıq əməkhaqqının **12,5 faiz** miqdarında məcburi dövlət sosial sığorta haqqı hesablanır.

## Aşağıdakı şəxslər üzrə məcburi dövlət sosial sığorta haqqı hesablanmır:

Mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslərin və ya ailə kəndli təsərrüfatının başçısı olan fiziki şəxslərin

- digər sahələrdə işləyib məcburi dövlət sosial sığorta haqqı ödəyən ailə üzvləri
- orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslər,
- 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər,
- 15 yaşınadək uşaqlar və
- 65 yaşına çatmış kişilər və 01.07.2025-ci il tarixdən 01.07.2026-cı il tarixədək 64,5, 01.07.2026 tarixdən 01.07.2027-ci il tarixədək 65 yaşına çatmış qadınlar (qadınların yaş həddi 01.07.2027-ci il tarixədək hər il 6 ay artırılır).

## Məcburi dövlət sosial sığorta haqqı nə vaxt ödənilir?

- Məcburi dövlət sosial sığorta haqqı “Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz” alınarkən ödənilir.

## “Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz”i haradan, necə əldə edilir, hansı müddətə verilir və bu barədə bəyannamə verilirmi?

Ailə kəndli təsərrüfatının başçısı və ya mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslər “Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz”i

- onlayn qaydada real rejimdə “Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz”in alınması barədə video təlimatla Dövlət Vergi Xidmətinin rəsmi internet saytında (https://www.taxes.gov.az/az/post/2755) tanış ola bilərsiniz),
- poçt vasitəsilə və ya
- vergi orqanı ilə razılaşma müqaviləsini bağlayaraq hesablanmış vergini, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqlarını tam məbləğdə ödədikdən sonra **vergi orqanına müraciət etmədən**,
- habelə qeydiyyat yeri və ya torpaq sahəsinin yerləşdiyi ərazi üzrə vergi orqanının əhatə dairəsinə daxil olan vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə
- növbəti ay, rüb, yarım il və ya il üçün əldə edilir və bu fəaliyyət üzrə vergi orqanına bəyannamə verilmir.

**Qeyd:** "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz"in alınması üçün yazılı müraciət edildikdə, ödəniş sənədləri müraciətə əlavə edilir (Mərkəzi Bankın informasiya sistemində ödəniş barədə məlumat mövcud olduqda ödəniş sənədi müraciətə əlavə olunmur), elektron qaydada müraciət edildikdə isə, ödəniş müraciətin edildiyi zaman elektron qaydada ödənilir və ya ödəniş sənədi müraciətə əlavə edilir (Mərkəzi Bankın informasiya sistemində ödəniş barədə məlumat mövcud olduqda ödəniş sənədi müraciətə əlavə olunmur).

# MALİYYƏ SANKSİYALARI, FAİZLƏR VƏ DİGƏR MƏSULİYYƏT TƏDBİRLƏRİ

Ailə kəndli təsərrüfatının başçısı olan fiziki şəxslər və mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslər tərəfindən "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödənilməsi haqqında qəbz" alınmamasına görə **təqvim ili ərzində** belə hallara

- **birinci dəfə** yol verildikdə aylıq hesablanmalı məcburi dövlət sosial sığorta haqqı məbləğinin **40 faizi**,
- **iki və daha çox dəfə** yol verildikdə isə aylıq hesablanmalı məcburi dövlət sosial sığorta haqqı məbləğinin **100 faizi** miqdarında maliyyə sanksiyası tətbiq edilir.

VERGİLƏRƏ AİD NƏŞRLƏR

195-1

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az